# FEMİNİZM

## Şeytanın qadın batalyonu?

YOXSA

## CƏMİYYƏTİN İNCİSİ?

Yoxladı:
QABİL ŞÜKÜROV

Müəllif:
SAHİB ƏSƏDOV

Tovhid.info

WWW.TOVHID.INFO

# FEMİNİZM

# Şeytanın qadın batalyonu?

## Yoxsa

# Cəmiyyətin incisi?

**Yoxladı:**

Qabil Şükürov

**Müəllif:**

Sahib Əsədov

## Mərhəmətli və Rəhimli Allahın adı ilə

# Müqəddimə

Əziz həmvətənlərimiz! Danışacağımız mövzu "feminizm" barədədir. Bu barədə danışmağımız səbəbsiz yerə deyil. Son dönəmlərdə kökü qərbə söykənən "feminizm"in ölkəmizdə qəribə şəkildə aktivləşməsi bu mövzuda danışmağımıza səbəb oldu. Görünən odur ki, bəzi insanları ölkəmizdə qadına verilən qiymət narahat edir. Şəkk yoxdur ki, qadın haqları sahəsində bir çox ölkələrdə problemlər mövcuddur. Eləcə də bizim ölkəmizdə… Cəmiyyətimizdə qadınların bir çox hüquqlara malik olması və bu cəmiyyətdə ailə dəyərlərinə böyük əhəmiyyət verilməsi bəzi qərb dairələrini narahat edir ki, bu da onları feminizm vasitəsilə həm Azərbaycan ailə institutuna, həm qadınlarımızın əxlaqına yönəlik bir çox hücumlara gətirib çıxarır.

Bu kiçik risalə qısa olsa da feministlərə və bu cür fikirlərə meyl edənlərə bir xatırlatma olaraq yazılmışdır. Cəmiyyətimiz sovet dönəmində belə heç bu qədər mənəvi deqradasiyaya məruz qalmamışdı. Sovet kommunizminin işğalçı rejimi millətimizin inancı ilə, kimliyi ilə mübarizə apardı. Lakin, həmin dövrün insanları bu günkü kimi hər ideologiyaya maraq göstərmirdilər. Müstəqillik dönəmində isə bu müstəqilliyi bizə çox görən bəzi qərb dairələri xalqımıza qarşı fikir

müharibəsini bir çox istiqamətdə yürüdürlər. Əslində onların əsas məqsədi bizim dəyərlərə hörmət deyil. Öz dəyərlərini bizim dəyərlərdən üstün gördükləri üçün bizi də özləri kimi etmək, öz fikir və dəyərlərinin təsiri altına almaq istəyirlər. Bu gizli fikir savaşının hədəflərindən biri də şərq qadınıdır. Çünki, qadını və ailə institunu dəyişdirmədən bir cəmiyyəti dəyişdirmək hədəfi tam gerçəkləşə bilməz. Feminizm də qərbin liberal və digər dairələrinin dəstəklədiyi, "böyük hədəflərə" hesablanmış, qadın hüquqlarının həqiqi müdafiəçisi olmaqdan kənar, dağıdıcı bir ideologiyadır.

Feminizm hərəkatının həqiqi siması ilə tanış olduqda biz onun əslində qadın hüquqlarının tələbinə deyil, bəzi qərb dairələrinin gələcək üçün hesablanmış cəmiyyətləri öz istəklərinə uyğun bir şəkildə şəkilləndirmək, tərbiyələndirmək planlarına xidmət etdiyini görürük.

Bu yazı əsnasında feminizmin mənası, qısa tarixi, bəzi növləri haqqında qısa bilgilər veriləcək, Azərbaycanda qadın hüquqları barədə bəzi məsələlərə toxunulacaq, həmçinin, feminizmin dünyadakı və ölkəmizdəki təhlükəsi və fəsadlarından danışılacaq, qadın və kişi fərqlərini inkar etməyin, beləcə, qadın və kişini heç bir fərq qoyulmadan mütləq şəkildə bərabərləşdirməyin doğru olmadığı izah ediləcək, sonda isə İslami prizmada qadına həqiqi dəyərin verilməsindən danışılacaqdır.

**Yazdı:** Sahib Əsədov. Mədinə şəhəri. 16.05.2020**.**

# Feminizm nədir?

Maraqlıdır, görəsən, feministlər hüquq bərabərliyi tələb edirlər? Yoxsa qadın özbaşınalığı? Bəlkə, hüquq bərabərliyi adı altında qadın istismarı, yaxud kişilərə qarşı düşmənçilik? Tələsməyək, gəlin ilk növbədə bu sözün mənasına nəzər yetirək: feminizm fransızca “femin”, latınca “femina” sözündən götürülüb, mənası “qadın” deməkdir (1).

Feministlərin Azərbaycanda 2020.03.8 tarixində etdikləri mitinq, "feminizmin həqiqi simasını açıb göstərdi" - desək, heç də yanılmarıq. Feminizm haqqında bir çox təriflər verilsə də gəlin Azərbaycanlı feministlərə məlum olan, özlərindən bəzilərinin işlətdikləri bir tərifi qeyd edək: «**“Feminizm – qadının insan olması haqqında radikal fikirdir”**». (2) Bu tərif feminist bir saytdan götürülmüşdür. Tərifə fikir verin: "Qadının insan olması haqqında radikal fikir". Özü də feminist qadın digər təriflərin içindən məhz bu tərifi daha uyğun görüb qeyd etmişdi. Necə deyərlər, görünən dağa nə bələdçi?

Feminizm tərəfdarları içərisində bu radikallıq özünü müxtəlif şəkillərdə göstərir. Belə ki, onlardan bəziləri evlənmir və evlənməyi də qadın üçün köləlik hesab edir. Kimisi kişi düşməni olur, özünü cəmiyyətdə sübut etməyə çalışmaqla kişilərdən intiqam alacağına inanır. Kimisi adət-ənənələrə, dinə qarşı müharibə elan edərək özünü daha fərqli göstərməyə çalışır. Bəziləri isə milli

qəhrəmanlarımıza "qatil" deyəcək qədər “şücaət” nümayiş elətdirir, ermənilәri belə sevindirəcək qədər "humanist" olurlar. Kimiləri isə feminizmi "seks azadlığı" kimi başa düşür.

## Feminizmin qısa tarixi:

Feminizm XVIII əsrdə əvvəlcə Şimali Amerikada, sonralar isə müstəqillik uğrunda mübarizə illərində, 1789-1799-cu illərdə "Böyük Fransız inqilabı" zamanı Fransada yaranan qadın hərəkatı olub… Amma maraqlıdır ki, o vaxtlar bu hərəkatın adı "feminizm" deyildi.

Fransız qadın yazıçısı Olimpiya de Quc'un "Qadınların hüquq deklarasiyası"ndan sonra ona haqq verən və yazıçının ətrafında birləşən qadınlara "feministlər" deməyə başladılar (3).

İndiki feminizm, araşdırmaçılara görə 1968-ci ilin feminizm əsasları üzərindədir. Feminist səhifələrin etiraf etdikləri kimi 60-cı illərdə qadın hərəkatı səflərində ekstrimist bir cinahın fəallaşdığını görə bilərik (4). Onlar ərə getmir, kişilərə tabeçiliyi qətiyyətlə inkar edirdilər. Hələ biz feminizm hərəkatının ilk qadın nümayəndələrinin kişilərə qarşı hansı zorakılıqları etdiklərini həya etdiyimiz üçün bu risalədə sadəcə qeyd etmirik. Yoxsa, hər kəs bilir ki, bir bina öz təmelləri

üzərində dayanır. Feminizmin bünövrəsində kişilərə qarşı şiddət olduğu kimi, bu gün də bu hal var. Hələ biz feministlərin qeyri-etik hərəkətləri barədə çox şeyləri qeyd etmirik. Təkcə feminizmin növlərindən ikisini ətraflı bir şəkildə izah etsək, düşünürük ki, bu, təhlükənin böyüklüyünü dərk etməyə kifayət edər. Feministlərin Ukraynada yayılan əxlaqsız, soyunan növündən isə yəqin ki, danışmaq biz müsəlmanlara yaraşmaz. Gəlin feminizmin hansı növlərinin olduğuna kiçik bir baxış edək.

## Feminizmin növləri:

Feminizmin növlərini araşdırdıqda isə feminizmin növləri feminizmin hansı məqsədlərə xidmət etdiyini bir daha gözlər önünə sərir:

- Anarxiya feminizmi,
- Kommunist feminizmi,
- Sosialist feminizmi,
- Liberalist feminizmi,
- Cinsiyyət feminizmi,
- Pop feminizmi,
- Seksual feminizm,
- Lesbian feminizm,
- Radikal feminizm,
- Separatist (yəni: ayrılıqçı) feminizm və daha nələr-nələr.

Bütün bu növlər, Azərbaycanın həyalı, iffətli qadınına yad fikirlərdir. Bu növlər dünyada qadın hüquqlarını müdafiə etməkdən daha çox qadından öz incəliyini, öz zərifliyini alaraq onu kobud, kişiləşmiş bir məxluqa çevirir. Qadın da məhz özü kimi olmadıqda eybəcərləşir.

Feminizmin "bərabərlikçi" növü isə (Bərabərlikçi feminizm) ümumiyyətlə feminizmin qabaqcıl liderləri tərəfindən feminizmin növlərindən hesab edilmir (5). Buna baxmayaraq, feministlər ölkəmizdə guya qadın hüquqlarını müdafiə edən feminizmin inkişaf etdiyini iddia edirlər. Lakin, Azərbaycan xalqı feminist haqları üçün polisə kişi kimi qışqıran qadının görüntülərini və feminist yürüşündə əxlaqsız şüarlar səsləndirən bəzi feministləri hələ uzun müddət unutmayacaqdır. Onlar əslində ölkəmizə feminizmin hansı növünü gətirmək istədiklərini, "nəyin" azadlığını istədiklərini bir daha göstərmiş oldular.

## Azərbaycan qadını həqiqətən də öz hüquqlarından məhrumdurmu?

Ümumiyyətlə, qadın azadlığı dedikdə görəsən nə qəsd olunur? Azərbaycan qadını məgər öz hüquq və azadlıqlarından məhrumdurmu? "Qadın azadlığı" konstitusiyada və beynəlxalq hüquqda qadının səsvermə hüququnun, seçilmək hüququnun, sağlamlıq, təhsil və başqa hüquqlarının təmin edilməsidir ki, bu

hüquqların hamısı Azərbaycan qadını üçün təmin olunmuşdur. Qadın azadlığı dedikdə qadının əxlaqsızlıq, özbaşınalıq, ərə itaətsizlik hüququ qəsd olunmalı deyil. Bu çirkin tələblər heç vaxt bir ölkədə qadın hüquqlarının göstəricisi olmayıb və olmayacaqdır da! Azərbaycan qadını kifayət qədər azaddır.

Feministlər işləmək hüququnda qadının fiziki imkanlarını nəzərə almadan qəribə statistikalar irəli sürürlər. Əsasən kişilərə aid işlərdə qadınların faiz nisbətini göstərib, kişi və qadınların müştərək işləyə biləcəkləri bir çox sahələrdə isə qadınların sayının kişiləri dəfələrlə üstələməsini qeyd etmirlər. Bu da feministlərin qeyri-səmimi bir təbliğatın qurbanı olmalarının onlarla sübutlarından sadəcə birisidir. Yox, əgər feministlər ümumi olaraq Azərbaycanda və ya hər hansısa bir ölkədə bəzi qadın hüquqlarının pozulduğunu iddia edir və bu hüquqların bərpası üçün mübarizə aparırlarsa, o zaman bilmək lazımdır ki, bu cür hüquq pozuntuları təkcə qadın hüquqlarına xas deyil, əksinə ümumidir. Belə olduğu halda, nə üçün məhz qadın hüquqlarının bərpası? Nə üçün qadın-kişi, ümumən, insan hüquqlarının bərpası yox?! Axı sizlər, daima, qadın-kişi bərabərliyindən danışırsınız. Bəs, nə üçün bu bərabərliyi pozursunuz? Nədir bu xüdbinliyin – eqoizmin səbəbi?

Deməli, feminist səhifələrdən birində qadınlar barədə verilən statistikada nələrin gizlədildiyinin şahidi olduq. Belə ki, onlar bu məlumatı verirlər: Azərbaycan qadını dövlət qulluğunda 28%, bələdiyyələrdə 26.1%,

sahibkarlar arasında 17%, parlamentdə 15,3%, hakim kimi 10% təmsil olunurlar (6). Bu işlərdə və sahələrdə qadın nisbəti az görünsə də əslində çoxdur. (Bunu bir çox aspektdən - elmi, fiziki, ictimai, məntiqi və s. - isbatlamağa da hazırıq).

Ölkənin ümumtəhsil müəssisələrində müəllimlərin 76,6%, orta ixtisas təhsil müəssisələrində 77,1%, ali təhsil müəssisələrində 48,8%, həkimlərin isə 64,8% qadınlardır (7). Bu o deməkdir ki, Azərbaycan cəmiyyətini qadınlar təlim-tərbiyə edir, müalicə edir və s. Bunun nə demək olduğunu başa düşürsünüzmü? Feministlərin səhifələrinə və saytlarına girsəniz, bu məlumatı gizlətdiklərini görəcəksiniz.

2015-ci ildə ölkəmizdə qadınların çalışdığı əsas fəaliyyət sahələri təhsil, səhiyyə, sosial xidmətlər, ticarət sahələri olmuşdur. Başqa sözlə, təhsil, səhiyyə və sosial xidmətlər sahələrində əmək müqaviləsi bağlanılanların 76%-78%-ini qadınlar təşkil edib (8). Bu siyahını uzatmaq da olar. İndi nə edək? "Kişi haqlarının müdafiəsi" cəmiyyəti quraq?

Azərbaycan qadını öz evinin xanımdır. Onun işləyib əziyyət çəkmək adlı qayğısı olmalı deyil. Bu mentalitetdə kişi işləyib ailəni dolandırmalıdırsa, bunun nəyi pisdir ki? Qadın evində oturub dolanışıq dərdi çəkməli deyil. Evinin xanımı olmaq qadının bütün işləri məcbur görməsi anlamına gəlmir. Qadının əri imkanlıdırsa, ona xidmətçi də tuta bilər və ya öz qadınına ev işlərində

gücü çatdığı qədər kömək edə bilər. Necə ki, İslam peyğəmbəri Məhəmməd də (səllallahu aleyhi və səlləm) ev işlərində öz yoldaşlarına kömək edərdi.

İndi sual olunur, hansı daha xeyirlidir; qadının öz evinin xanımı olub, evində övladlarının təlim-tərbiyəsi ilə məşqul olması, yoxsa "yalnız 20 yaşacan qız işçilər tələb olunur" – reklamlı işlərdə işləyərək, "azad qadın" havası ilə vaxt keçirib, evində öz ərinə qarşı itaətkarsızlıq nümayiş etdirdiyi halda, müdirinə qarşı xüsusi bir nəvaziş göstərməsi?

## Feminizm bizə lazımdırmı?

Bu sual yerində verilmiş bir sualdır! Görəsən, feminizm bizə lazımdırmı? Bu suala cavab vermək üçün feminizmin həqiqi məqsədi aydın olmalıdır. Həmçinin, nəyə görə Avropa ölkələrində Feminizmin radikal qollarının daha inkişaf etdiyini, şərq ölkələrində isə feminizm təbliğatının "mələk tipli" feminist qadın obrazı şəklində aparıldığını başa düşmək lazımdır. Bunun ən bariz nümunəsi Azərbaycanda 2020-ci ilin 8 mart yürüşü zamanı baş verən əxlaqsız feminist şüarları, özünə sui-qəsd edən feminist qızdan tutmuş, səbrli Azərbaycan polisinin üzünə dəfələrlə qadına yaraşmayan şəkildə kişi kimi qışqıran qadının yaddaşlarda qalan çirkin epizodunu göstərmək olar. Həmin yürüşdə Azərbaycan qadını şüuraltı olaraq

feminizmin yaxın illərdə etdiyi təbliğata öz mənfi qiymətini verdi, feminizmin "hansı hüquqları" müdafiə etməsini anladı. Azərbaycan qadını "bizə feminizm lazım deyil" qərarını verdi.

## Feminizmin cəmiyyətimiz üçün təhlükəsi nədir?

**Birincisi: "Şərli kişi" və "xeyirxah qadın" obrazı:** Feminizmə görə: «Qadınlıq daha kamil olmaqdır, kişilik isə dünyada bütün şərlərin səbəbidir. Feminizm ideologiyası dünyanı iki düşərgəyə bölür: Dünyada "şər qüvvələr" güc sahibi olan kişilərdir, "xeyir qüvvələr" isə qadınlardır. Bu xeyirli qüvvələrə uşaqlar, gənclər, cinsi azlıqlar və bütün azlıq təşkil edən qruplar daxildir» (9). Kiməsə görə "feminizm" yalnız bərabər hüquqlar tələbi kimi görünə bilər. Bu məsələyə yazının sonunda bir qədər ətraflı izah veriləcəkdir. Bu doğru deyil. Kişinin özünə məxsus, qadının da özünə məxsus hüquqları var. Mütləq şəkildə nə kişi qadın funksiyasını yerinə yetirə bilməz, nə də qadın kişi funksiyasını yerinə yetirə bilməz.

Buna misal olaraq, kişilərin hərbi xidmətə çağrıldığı və müharibə zamanı ön cəbhəyə yollandığı halda, qadınlardan bütün bunların tələb olunmamasını qeyd etmək olar. Nə üçün qadın-kişi arasında "hüquq bərabərliyi" tələb edən feministlər, qadınların da hərbi

xədmətə çağrılmasını tələb etmirlər? Axı kişi və qadın eyni hüquqludur! Nə üçün kişilər ön cəbhədə vuruşaraq həlak olmalı, qadınlar isə evlərində oturaraq özlərini müharibənin zərərlərindən güvəndə saxlamalıdırlar?

**İkincisi: Din düşmənçiliyi:** Feministlərin dinə qarşı mübarizə aparan, ateistlərlə bir səfdə duranlarını aydın şəkildə müşahidə etmək mümkündür; Feministlərin mitinqinə vaxtilə əlində «Tanrı böyük deyil» adlı ateist kitabını tutub şəkil çəkdirən dinsiz jurnalistlər də gəlmişdilər. Eyni zamanda feminist səhifələrində dinsizlik çağırışlarına da ara-sıra rast gəlmək olur. Feminizm ideologiyası eyni zamanda dinlərin aradan qalxmasını dəstəkləyən fikir sistemidir. Dr. Bəşir İsam əl-Mərakeşi «feminizm cinayəti» adlı kitabında deyir:

"Onlar yalnız kişi üstünlüyünə qarşı deyil, dinə qarşı da mübarizə aparır, dinin ən şiddətli düşmən olduğunu iddia edirlər. Deyirlər ki: «Din başlayan yerdə qadın dayanır». Həmçinin, deyirlər: «Dinlər bərabərsizlik fikrinin katalizatorudur». Feminizmin din barədə klassik mövqeyi bu şəkildə aydındır. Həmçinin, siyasət barədə də deyirlər: «Qüsurlu sistemi düzəltmək mümkün deyil. Bunun üçün onu dağıtmaq lazımdır». Ona görə də feminizm geniş, səthi, ifratçı hərəkat olmaqla yanaşı sonuncu dəfə 1968-ci ilin may hadisələrindən sonra bu feminizmi qadın mənəviyyatına uyğunlaşdırmaqla məkrli feminizm planları gerçəkləşdirilməyə çalışılır. Bu hərəkatın dini, siyasi və cinsi olmaqla müxtəlif

aspektlərdə atalara, kişilərə qarşı mübarizəsi müşahidə edilir" (10).

**Üçüncüsü: Mentalitet düşmənçiliyi:** Feminizmin növlərindən danışarkən əslində feminizmin növləri və dünyada yayılma formaları feminist qadın və ya qız modelinin Azərbaycan mentalitetinə zidd olduğunu görürük. Feministlər milli cəhətdən də təhlükəli çıxışları ilə gündəmə gəlirlər. Feminist qadın və ya qız istər-istəməz bu dəyərlərlə toqquşmalı olur. Feministlərin Azərbaycanın milli qəhrəmanına "qatil" deyənləri, "öz cinsi orqanlarını istədikləri kimi istifadə edəcəklərini" plakatlara yazıb yürüş keçirib Azərbaycan xanımına yaraşmayan ifadələri həmin yürüşdə şüar edənlər və daha kimlər olduğu haqda bir çoxumuz bu yaxınlarda məlumatlandıq. Feminizmin şüarlarından biri də "dəyişmək"dir. Lakin, onlar unudurlar ki, hər məsələdə dəyişiklik inkişaf etmək hesab olunmur. Əksinə, bəzi dəyərlər dəyişildikdə fəsad ortaya çıxır. Məsələn; insanların müəyyən əxlaqi dəyərləri vardır ki, əgər o dəyərlər dəyişilərsə, artıq ortada şüurlu insanla şüursuz heyvanın heç bir fərqi qalmaz. Yaxud da hansısa möhtəşəm bir tarixi binanı restabrasiya etmək adıyla təməlindən sökmək dəyişiklik deyil, bu, sadəcə tarixi dağıtmaq hesab oluna bilər.

**Dördüncüsü: Ailə və evlilik düşmənçiliyi;** Feminizmin gətirdiyi əsas təhlükələrdən biri də feministlərin ailə qurmağa həvəsli olmamaları, ailə quranlarının isə həyat yoldaşlarıyla bu mövzularda problemlər yaşamaları və s.

- hallardır. Əbəs yerə deyilməyib ki, «feminizmin ömrü ailə qurana kimidir». Ona görə də bir çox feministlərin ya ümumiyyətlə evlənmədikləri, ya evlilikdən kənar münasibətlərə üstünlük verdikləri, ya evlilik haqda çox pis fikirlərdə olduqları, ya da evli feministlərin bu fikirlərdən dolayı bəzi problemlərlə qarşılaşdıqları müşahidə olunur.

Ərdə olmağın "kölə olmağa" bərabər olduğunu düşünən feministlər həm evliliyə qarşı çıxır, həm də evlənənlərin uşaq salmasına, abort etdirməsinə çağırır, uşaqların belə qadının əlini-qolunu bağladığını, həyatdan məhrum etdiyini düşünür. Bir sözlə qadının əsil xoşbəxtliyinin nədə olduğunu bilməyən feminist bir qadın bəzən özünə iş taparaq ofislərdə tanımadığı kişilərə xidmət etməyi evinin xanımı olmaq, ərinə, uşağına xidmət etməkdən üstün tutur. Nəticədə isə öz ərinə, uşağına deyil, tanımadığı kişilərə xidmət etmiş və öz təbirilə desək; yad insanlara qul olur.

Feminist insan özünə sual verməlidir ki, əgər o öz evindəkilərə xidmət etməyi özünə ar bilirsə, çöldəkilərə xidmət etməyi niyə özünə ar bilmir? Halbuki, evində oturduqda həm daha təhlükəsiz yerdə olur, həm də ruzisi qarşılıqsız gəlir. Çöldə isə qadın daha təhlükəli yerdə olur, həm də əziyyətlə pul qazanmalı olur. Hansı tərəfdən yanaşırıqsa yanaşaq, yenə feministlərin ziddiyyətləri açıq-aydın görünməkdədir.

**Beşincisi: Ata və anaya üsyan:** Feminizmin əsas problemlərindən biri də, ata itaətsizliyi və atalarla ciddi problemlər yaşamalarıdır. Feminizm təsirinə düşən qızlar bu problemləri ilə məşhurdurlar. Üstəlik də atalarının bəzi qüsurlarını mediaya sızdıran dar təfəkkürlü "feminist qızlar"ın peyda olması, atalarını biabır etmələri Azərbaycan cəmiyyətinə, ailə və insanlıq dəyərlərinə qarşı feminizmin ilk zərbələrindən biridir desək heç də yanılmarıq. Feministlərin gələcəkdə Azərbaycan ailələrində törədəcəkləri xaos və nizamsızlıq barədə düşünmək insanda çox mənfi təsir yaradır. Qərbli feminist yazıçıların ailə və ata haqda çox radikal yazılarını oxuyan bəzi qızlar artıq bizim cəmiyyətdə də öz valideynlərini biabır etməyə başlayıblar. Yaxın zamanlarda məşhur bir müxalifət liderinin qızı atasının uşaq vaxtı guya onunla yaxşı davranmamasını dünyanın ən böyük probleminə çevirməsi ilə atasını ittiham etmiş, atasını Azərbaycan mediasında rəzil-rüsvay etmiş; onu qucağında böyük ümidlərlə gəzdirib, "körpə qızım", "balam", "canım" dediyi qızı 18 yaşına çatdıqda, atasının üzünə "sən qadın haqlarını tapdalayırsan" - deyə hayqırmaqla atasının illərlə etdiyi yaxşılıqları özünə "qaytarmış" oldu, nə də anasını dinləyib bu yoldan əl çəkmədi. Çox təəssüf edirəm ki, bu misalı Avropa cəmiyyətindən deyil, öz cəmiyyətimizdən çəkməli oldum. Sadəcə həmin qızdan fərqli olaraq onun atasının adını və öz adını bu yazıda qeyd etmirəm. Onsuz da onların ailəsi yaxın bir ildə bu feminist qızın sayəsində günlərlə Azərbaycan

mediasının gündəmindən düşməmiş, çox çətin günlər yaşamışdılar.

**Altıncısı: «Yeni müxalifət tipi»;** Feministlərin Avropadakı fəaliyyəti də radikal müxalifət tipidir. Bu müxalifət tipi cəmiyyətə xeyirli bir dəyişiklik vəd etmir. Bu "müxalifət" cəmiyyətin problemlərini həll etməkdə bir işə yaramır, həm də təsiri kişilərə qarşı müxalifət qurmaqdan da o yana keçmir. Avropa femenistləri isə soyunub sinələrini göstərməklə qadın problemlərinə diqqət çəkəcəklərini düşünsələr də, bir çox cəmiyyətlərdə qadınlar haqqında "dar düşüncəli, axmaq, şəhvət düşkünü, ehtiras köləsi" təəssüratı yaradırlar. Bu isə qadın hüquqlarına qarşı cinayətdir. Qadını aşağılamaqdır. Dr. Bəşir İsam da feminizm haqda kitabında bu nöqtəyə diqqət çəkərək demişdir: «Feminizm hərəkatının ifratçılığı bütün eyibləri özünə çəkir: sərhədləri aşmış inqilaba səy göstərmək, əks nəticələrə gətirib çıxarmaq həddində olan təsirsiz mübarizə, qadınlara nifrətin yenidən alovlanmasına gətirib çıxaracaq kişi nifrəti, ideoloji boşluq... Bu günkü dünyamız feministlərin axmaqlığa çevrilmiş "qadın fikirləri" ilə doludur. Feministlərin mövcudluğu bu dəlilik həddində olan azğınlığı bir daha sübut edir". (11).

**Yeddincisi**: **Hədəfsizlik və mənəvi boşluq:** Psixoloq Nazim Orucov deyir ki: «feminizm hərəkatı vaxtilə qadınların hüquqları uğrunda mübarizə kimi başlamışdı, lakin hazırda bu hərəkatın kimə və nəyə qulluq etdiyi bəlli deyil». (12).

Sosioloq Əhməd Qəşəmoğlu deyir ki: «Bir çox qadın şəxsi acığını çıxmaq üçün feminizmi indiki vəziyyətə sürükləyib». O həmçinin qeyd edib ki: «Çox maraqlıdır ki, feminizm müxtəlif ölkələrdə müxtəlif formalarda yayılmaqdadır. İnsanlar hərəkatın yaranma səbəbini və mahiyyətini bilmədən onu öz məqsədləri üçün istifadə edirlər». (13). Onda sual yaranır ki, əgər feminizmin müxtəlif ölkələrdə müxtəlif formalarda yayılırsa, bizdə bunu yayan kəsimin radikallığı da varsa, görəsən, qadın haqları ilə elə qadınların hüquqlarının müdafiəsi ilə məşğul olan orqanların məşğul olması daha məqsədəuyğun olmazdımı?

Azərbaycanlı feminist jurnalistlərdən biri etiraf edərək deyir: «Avropa feministlərinin isə həyat tərzləri bir az fərqlidir, maddi şeylərdən, əsasən də puldan uzaq, hippilər kimi həyat sürürlər. Demək olar ki, zibillikdə yaşayırlar. Onlar üçün ərə getmək, uşaq doğmaq anlayışı yoxdur. Hətta biləndə ki, mən ailəliyəm və uşaqlarım var, mənə münasibətləri kəskin dəyişdi"» (14).

Biz hələ Ukraynadakı biabırçı, etiraz üslubu soyunmaq olan feministlərdən danışmırıq. Onların və digər feminist qrupların fəaliyyətlərindən, düşüncə və əməllərindən danışsaq, feministlərin hansı böyük hədəfsizliklər və mənəvi boşluqlar içində olduğu daha ətraflı şəkildə aydın olar. Xülasə odur ki, feminizmi özünə həyat qayəsi edən qadınlar əslində qayəsizlik girdabına düşmüş

olurlar və onlar üçün həyatın təbii çalarları öz mahiyyətini itirmiş olur.

**Səkkizincisi: Kişisayağı qadınlar:** Bəzi feministlər var ki, onlar qadına aid olan heç bir qaydaya əməl etmirlər və özlərinə bunu təhqir hesab edirlər. Onlar bir az kişisayağı geyinir, kişi kimi hərəkətlər də edirlər. Çox qəribədir! Bir tərəfdən kişi cinsinə qarşı olan kin və nifrət, başqa bir tərəfdən isə özlərini kişi cinsinə bənzətmə sevdası.

**Doqquzuncusu: "Süni analıq" və uşaq abortları;** Surroqat analıq (kirayə analıq) zərurət olmadan bu yollara baş vurmaq  da feminist qadınların uşaq dünyaya gətirmək məsuliyyətindən qurtulmaları üçün təklif etdikləri həll yoludur. Qərb dünyasındakı ailələr qiymətlərin ucuz olmasından dolayı kirayə analar üçün əsasən hindistanlı qadınlarla müqavilə bağlayırlar. Araşdırmalar bu cür "kirayə analıq" nəticəsində övlada sahiblənmənin uğursuz bir metod olduğunu, geniş yayıldığı təqdirdə isə bir çox cəmiyyətlərdə böyük problemlərə səbəb olacağını isbat etmişdir. Uşaq abortları isə feministlərin "qadını azad etmək" adına, "kişi təsirindən" qurtarmaq üçün təklif etdikləri metodlardan biridir.

Həmçinin, Avropada feminizm geniş yayıldığından uşaqsız, bir çox hallarda isə ərsiz qalan bəzi feministlər sonda it, pişik saxlamaqla tənhalıqdan qurtulmağa çalışırlar. Kişi düşmənliyi axırda onları "it-pişik

sevgisinə" sövq edir. Feminizmin kişi düşmənliyi onlara həqiqi xoşbəxtlik gətirmir. Həqiqi xoşbəxtlik Allahın əmr və qadağalarına tabe olmaq və normal kişi-qadının ailə münasibətləri çərçivəsində mümkündür.

**Onuncusu: "Azad seks" adı altında əxlaqsızlıq:**

Evliliyə nifrət edən qızlar bəzən əsil qadın istismarçılarının seks qurbanlarına çevrilə bilirlər. Evlənmədən də öz cinsi, sevgi və ya mənəvi tələbatlarını ödəyə biləcəklərini düşünürlər. Bu isə cəmiyyəti uçuruma sürükləyir. Belə birisi evləndikdə onun tərbiyəsində böyüyən uşaqlar cəmiyyətimiz üçün də mənəviyyatı inkişaf etmiş və yararlı nəsil kimi yetişə bilmir. Ata qayğısından uzaq, dul feministlərin tərbiyəsi altında natamam və uşaq mənəviyyatını doyurmayan bu tərbiyə gələcəyin zəif şəxsiyyətlərini yetişdirəcəkdir.

Feministlər arasında lezbiyanlığın yayılması məlum məsələdir. Kişilərə düşmənçilik psixologiyası onları bir-birinə daha çox bağlayır, daha çox bir yerdə vaxt keçirməyə üstünlük verən bu qruplar arasında cinsi sapıqlıqlar yayılır. Kimsə bu həqiqətləri inkar etmək istəsə, biz faktlarla da danışa bilərik. Elə öz cəmiyyətimizdən və qırağa getmədən. Əlqərəz… feminist yazarların kitablarında da bu cür fikirlərin təbliğ olunması bu mühitə düşənləri mənəvi eroziyaya məruz qoyur. Qeyd olunduğu kimi evlənməyə pis baxan, kişilərə də nifrət edən bir zehniyyət buna müvafiq olaraq ya cinsi hislərini eyni cinsə tərəf yönəldir, ya da evlilik

xarici cinsi münasibətlərə meyillənir. Bu mövzudan danışarkən normal qadın hüquqları müdafiəsilə məşğul olan qurumlardan danışmırıq, biz sırf "feminist" zehniyyətini daşıyanlardan danışırıq. Onların Bakı şəhərində 2020-ci ilin 8 martında etdikləri yürüşdə "vaginaya azadlıq" şüarlarından sonra Azərbaycan xalqı feministlərin "azad sex" şüarına güclü ictimai qınaq göstərdi və bu yürüş feministləri cəmiyyətin gözündə əxlaqsızlığa meyilli bir qrup kimi tanıtdı.

Avropada isə durum daha dəhşətlidir. "Qadın hüquqlarını müdafiə" adı altında qadınların əxlaqsızlığa və əxlaqsız qrupların təsirinə düşməsi adi bir hal olmuşdur. Ukrayna feminist hərəkatının lideri Anna Şevçenkonun sözləri də bunu təsdiqləyir. O belə deyirdi: «Biz mediaya nəyin lazım olduğunu bilirik: seks, biabırçı hərəkətlər, təcavüzlər. Onlara bu şeyləri mütləq vermək lazımdır» (15). Həmin feministlər də heç çəkinmədən, utanmadan bu metodları tətbiq etməklə öz etirazlarını kişilərə çatdırdıqlarını düşünürlər. Nədənsə, Azərbaycanda da, feministlərin ilk tutarlı yürüşü əxlaqsız şüarlarla yadda qaldı. Əslində, burada qəribsənəcək bir hal da yoxdur. Çünki bu, elə əslində feminizmin əsl simasının bir təzahürü idi.

Nə qədər bizdəki hərəkata yumşaq yanaşmaq istəyənlər olsa da "ot öz kökü üstündə bitdiyini" yenə təsdiqlədi. Ataların "Od olmayan yerdən tüstü çıxmaz" prinsipi də öz təsdiqini tapdı. Adama deyərlər ki, siz əgər normal qadın haqqı tələb edən bir qrupsunuzsa, içinizdə bir iki

nəfər başını itirib əxlaqsız şüarlar hazırlayıbsa, içinizdə bir normal qız, qadın çıxmadımı bu əxlaqsız şüarları oradan yığışdırsın?

Ən böyük problem isə bu gün Avropadakı bir çox lezbiyan feministlərin utanmadan bütün qadınların adından danışmalarıdır. Feminizm hərəkatı boş yerə bu sapıq qadınlarla əlaqələndirilmir. Özlərini müdafiə edən feministləri bu hərəkatın müasir liderlərinin həyatlarını yaxşı incələməyi tövsiyə edirik. Ukrayna feminizm modeli bəs etsə də, Fransa feminizm modelində də bu eybəcərlik kifayət qədər aydın görünür. Azərbaycan qızlarını birmənalı şəkildə bu sapıq hərəkatdan uzaq durmağa səsləyirik. Onların feminizmin qaranlıq tarixindəki mübarizədə adlarını lezbiyan kimi yazdırmış məşhur feminizm təbliğatçılarından (Therese Clerc, Isabelle Alonso, Clementine Autain, Simone de Beauvoir, Elisabeth Badinter və başqaları) xəbərləri yoxdur. Zənnimizcə abır-həyalı bir qız və ya qadın bunları bildikdən sonra özünün bu əxlaqsız hərəkata nisbət olunması ilə razılaşmaz. Onun "mən yaxşı feministəm, onlardan isə uzağam" - deyib özünü təsəlli etməkdənsə, ona sadəcə yaxşı qız və ya yaxşı bir qadın olması, onlara qoşulmaması əslində bəs edərdi.

**On birincisi: Qərbin uzaq məqsədlərinə xidmət**: Qadınları feminizm vasitəsilə korlamaq və cəmiyyətin əxlaqını pozmaq, qadınların vasitəsilə dünyanın düzənini dəyişmək qərbçiliyin siyasətlərindən yalnız biridir. Qərbdə yaranmış bir çox hərəkatlar şərq

dünyasının mənəviyyatını dəyişdirməyə yönəlmiş hərəkatlardır. Onlar Şərqi öz maraqlarına uyğunlaşdırmaq üçün milyonlar, milyardlar xərcləyirlər. Ərəb ölkələrindən birində qadın haqları üzrə fəal olan Suad əl-Qudsi adlı xanım ona «qadın cəmiyyətlərinə qərb dövlətlərindən ayrılan pulların nə üçün xərclənməsi barədə» ünvanlanan suala belə cavab vermişdi:

«Xaricdən və xüsusən də qərbdən gələn hər bir pul heç bir zaman xeyir məqsədilə və yaxşı niyyətlə verilmir. Bütün bunlar uzaq məqsədləri olan siyasi maraqlar üçün edilir. Əslində isə qadın məsələləri ilə əlaqədar olan bir çox proqram və layihələr həqiqi ehtiyaclardan dolayı ərsəyə gəlmir. Bunlar qadınları düşünmək üçün edilmir, bu, sadəcə qərbin siyasi hədəfləri üçün pul bazarlarında bəzi coğrafiyaların hədəfə alınmasıdır» (16). Uca Allah belələri haqqında buyurur: «Şübhəsiz ki, kafir olanlar insanları Allah yolundan sapdırmaq üçün öz mallarını sərf edirlər. Onlar onu sərf edəcək, sonra bunun peşmançılığını çəkəcək, daha sonra isə məğlub ediləcəklər». (Ənfal, 36).

Möhtərəm oxucu! Qərb dünyası şərqi dəyişdirmək üçün birinci şərq qadınını dəyişdirmək istəyir. Dünyanın onlarla ölkələrini bu gün də öz müstəmləkəsi kimi saxlayan, bu ölkələrin sərvətlərini talayıb çapan qərb ölkələri, dünyada təkcə 14 müstəmləkəsi olan Fransa və ondan geri qalmayan başqa qərb ölkələri bu pulları əbəs yerə qadın təşkilatlarına ayırmırlar. Onlardan qərbçi Bernard Luis əbəs yerə deməmişdi ki: «İslam ölkələrinin

qərbləşməsini üç şeylə edə bilərik. Ondan biri də qadındır» (17). Bu gün qadınlarımıza sahib çıxmasaq, onları media və başqa qurumlar istədikləri kimi tərbiyə edəcəklər.

## Qadın hüquqları və "cins bərabərliyi" barədə:

Artıq qeyd olundu ki, ölkəmizdə qadın hüquqlarını müdafiə edən kifayət qədər qurumlar var. Bu qurumların hamısı feminizmlə əlaqədar deyildir. Yəni, bir çox insanlar feministlərlə digər qadın fəalları qarışdırırlar. Qadın toplumları, qadın mərkəzləri hamısı feminizlmlə əlaqədar deyildir. Lakin, feminist təşkilatların feminizm təbliğatını gücləndirmək üçün xüsusi qadın klubları, qadın mərkəzləri yaratmaqda maraqlı olduqları və bununla da öz təbliğatlarını qurmaları da unudulmalı deyil.

**"Gender bərabərliyi" termini:** "Gender bərabərliyi" termini ailə və evlilik kimi mühüm bir mövzuya qərbin maraqları çərçivəsində verilmiş bir təfsirdir. Bu termin feminizmə xidmət edən, dünya xalqlarına qəbul etdirilməsi zəruri göstərilən bir termindir. Bu "bərabərlik" timsalında kişi və qadınlar arasındakı bütün mənəvi və fiziki fərqlər aradan qaldırılır, Allahın insanı yaratmasında olan fərqliliklər inkar edilir. Qurani-Kərimdə: «Ey insanlar! Biz sizi kişi və qadından

yaratdıq». (Hucurat, 13). buyurulması və yaradılışdan fitri olaraq lütf edilmiş insanlara bir çox kişi-qadın fərqlilikləri (fiziki və mənəvi) nəzərə alınmır.

Lakin, qadınlara yüksək dəyər verən ölkələrdə də "qadın məzlumluğu" kimi məfhumlar qabardılır, qadına qiymət və hörmət heç yox imiş kimi bu cür şüarlar insanlara qərbin maraqları çərçivəsində yeridilir. Əslində isə bu güclü ölkələrin zəif ölkələrə öz mədəniyyətini sırımasından başqa bir şey deyildir.

Qadınlara aid terminlərdən danışarkən nəzərə alınmayan tərəflərdən biri də terminlərdə qəsd olunan «həqiqi kimliyin» kimə aid olması, bəzən isə bu, terminlərin düzgün çatdırılmamasıdır.

Bu terminlərdən biri də "gender bərabərliyi"dir ki, bundan məqsəd əgər bir cəmiyyətdə kişilər əxlaqsızlıq edirsə, qadınların da bunu edə biləcəkləri kimi lazımsız mübahisələr qəsd olunmur. Təssüflər olsun ki, qadınların əsas haqları təmin olunan bir çox müasir ölkələrdə bəzi insanlar "gender bərabərliyini" əsas gətirərək qadın azadlığının çərçivələrini bilmədən bunu "qadın özbaşınalığı", sonra isə qadının "cəmiyyətin əxlaqi normalarını tapdalamaq" azadlığı kimi təqdim edib bundan sui istifadə edirlər. Hər bir ölkənin mədəniyyəti, əxlaqi normaları olduğu kimi qərb dünyasının da bu cür normaları var. Lakin, fəlakət o zaman baş verir ki, dünyada cəmiyyətlərin fikir müharibəsinə xidmət edən bəzi terminlər "bərabərlik,

azadlıq“ şüarları ilə pərdələnərək cəmiyyətləri həlaka sürüklədikdə millətlərin düşünən beyinləri bu fəlakəti "xoşməramlı" qəbul edirlər.

Dr. Xalid əs-Seyf qadınlara aid dünyada işlədilən terminlərin başqa dillərə tərcümə problemlərindən danışarkən «gender» və başqa terminlərin həqiqi mənasının düzgün çatdırılmamasını, qərbin maraqlarını təmsil edən bir çox terminləri insanların sadəcə lüğəvi cəhətdən anlamağa çalışdıqlarını, mahiyyətindən isə bixəbər olduqlarını qeyd edir (18).

Gender bərabərliyi haqqında Azərbaycan dilində yazılmış məqalələrdən birində hətta mövzunun başqa məcrada təqdim edilməsilə Muhəmməd Peyğəmbərin ﷺ qadınlara hörmət etməyi tövsiyə edən hədisi də qeyd edilir, sonra isə mənası "gender bərabərliyinə" yozulur. Təəssüf olsun ki, elm adından danışan şəxs yazısında İslam dininin fitrət dini olmasını, bu əzəmətli dinin həm kişinin, həm də qadının fiziki və mənəvi potensialına görə hər iki cinsi layiqli yerinə qoymuş olmasını, heç bir cinsin mütləq şəkildə digər cinsi əvəzləməyəcək şəkildə qiymətləndirməsini bilmir. Bunu daha ətraflı şəkildə mövzunun sonunda ələ alacağıq.

## Qadın və kişi arasında fərqlər danılmazdır

Qadınlarla kişilər arasında yaradılışdan bir çox fərqlər vardır. Bu fərq həm fiziki göstəricilərdə, həm əqli fəaliyyətdə, həm zövqlərin fərqliliyində, həm də emosionallıq fərqliliyində və s. bir çox aspektlərdə özünü biruzə verir. Bu fərqliliklər iki cinsin əmək qabiliyyətinə, ixtisas və meyillərinə də ciddi təsir göstərir. Məsələn; kişilərin fiziki göstəriciləri onları döyüş meydanına daha münasib edir. Qadınların dözümlülüyü, zərifliyi və şəfqəti isə onları evin xanımı və uşaqların tərbiyəçisi olmağa münasib edir.

Kişilərin fiziki göstəriciləri onların ağır işlərdə işləmələrinə imkan verdiyi kimi, qadınların zərifliyi və incəliyi də onları daha yüngül işlərdə işləməyə və özünü inkişaf etdirməyə şərait yaradır.

Eləcə də qazilik, siyasət və məhkəmə işləri çox zaman emosionallığı yüksək olan, qəlbi kövrək insanların uğur qazana bilmədiyi, hislərinin təsirinə qapanıb yanlış hökmlər çıxarıla bilinəcəyi üçün heç də qadınların mükəmməl bacaracağı işlərdən hesab edilmir. Kişilər isə daha soyuqqanlı olduqları üçün hökm verdikdə hislərinə deyil, ağıllarına əsaslanırlar. Çünki, hislərə qapılmaq ağılı arxa plana atmağa səbəb olaraq qərarın yanlış olmağına səbəb ola bilir.

«Linfield» kollecindən Yanna Weisberg və onun həmkarları 2011-ci ildə bir araşdırma keçiriblər. Tədqiqatçılar müəyyən ediblər ki, qadınlar həvəs, mərhəmət, nəzakət, nizam-intizam, dəyişkənlik, imtina

və açıqlıqla bağlı daha yüksək nəticələr qazanıblar. Kişilər isə özünə inam, çalışqanlıq və intellektdə daha üstün olublar (19). Bu misalları artırmaq da olar. Kişi-qadın fərqləri barədə bəzi məqalələrdə 50 fərqə çatacaq qədər fərqlər qeyd edilmişdir ki, bu da təbiidir.

Lakin, bu gün feminist və digər qrupların qadınların niyə idarəetmədə və bəzi orqanlarda az çalışdıqlarını haray-həşirlə gündəmə gətirmələri, lakin, qadınların təhsil və tibb sahəsində sayca kişilərdən daha çox olmalarını gizlətmələri daha maraqlıdır. Bütün bunlar o deməkdir ki, qadın və kişi fərqləri, fiziki və mənəvi potensiallar Azərbaycan qadınını tikintidə fəhlə işləyən, daş daşıyan, əsgərliyə gedən bir qadın etməmişdir. Feministlər və digər qruplar əslində bu fərqlilikləri qadının xeyrinə edən dinə və mentalitetə təşəkkür etməli və bu düşmənçilikdən əl çəkməlidirlər. Əgər "mütləq gender bərabərliyi" ndən söhbət gedirsə, onda qadınlar da əsgərliyə getməli, döyüşlərə qatılmalı, səngərdə dayanmalı, daş daşımalı, ağır işlərdə işləməlidirlər. Əgər bu məsələlər qaldırılmırsa, onda digər məsələlər də qaldırılmalı deyil.

## Qadın hüquqlarının pozulması halları

Əslində, kişi və qadın bərabərliyini təsdiq edən ideya Azərbaycan qanunvericiliyində, konstitusiyanın 25-ci maddəsində də var. Əgər belədirsə, sual yaranır ki, görəsən onda feminizmin bu "bərabərlik" çağırışlarına nə ehtiyac var?

Həmçinin, Azərbaycanda qadın hüquqlarını müdafiə edən kifayət qədər qurumlar var. O qurumlar ki, Azərbaycanda ən çox görünən qadın problemlərinin həllinə çalışırlar; zorakılıq, qətl, şiddət, təcavüz və s. Bu cür qurumlar olduğu halda, bu qurumların mediada güclü təşkilatlanması, aktiv şəkildə cəmiyyətimizdə qadınlara qarşı qayğı, diqqət tələb etmələri, ailə problemləri ilə əlaqədar ortadakı problemləri düzgün elmi metodlarla həll olunması, şiddət və zorakılıq barədə bütün qabaqlayıcı və problemi azaldacaq işləri görmələri baş tutarsa, o zaman cəmiyyətimizdə baş verən ailədaxili münaqişələrin feminizmin təbliğində yem kimi istifadə olunması halları da azalacaqdır.

Təcavüzə və şiddətə gəldikdə isə; ilk növbədə unutmaq lazım deyil ki, cəmiyyətdə yalnız qadınlar şiddətə məruz qalmırlar. Kişilər də bir çox hallarda şiddətə məruz qalırlar. Lakin, onların hüquqlarını müdafiə edən bir mərkəz, təşkilat belə yoxdur.

Qadınların isə gözəl tərbiyəli, savadlı olmaları onların şiddətdən və təcavüzdən qorunmasına ən böyük səbəblərdən biri ola bilər. Çünki, bir tərbiyəli qadın çox rahatlıqla təcavüzə uğramır. Çünki, belə bir qadın bir çox təcavüz hallarının qarşısını öz xarakteri ilə alır. Yəni, buna şərait yaratmır, nə də başqalarında belə hərəkətlərə həvəs yaratmır və bu həvəsi yaradan səbəblərdən uzaq olur. Şəkk yoxdur ki, bu gün dünyada və ölkəmizdə təcavüz halları da mövcuddur. Lakin, bu da bir həqiqətdir ki, təcavüz kimi təqdim olunan bir çox hallarda qadınların özləri də bunda müəyyən qədər təqsirkar və şərait yaradan olurlar. Təcavüzkarlar normal şəraitdə dini geyimdə və yaxud da abırlı geyinən xanımlara deyil, daha çox açıq-saçıq geyinən qız və qadınlara tamah salırlar.

Təcavüzdən danışarkən öz ərinə gizlində xəyanət edən, yaxud da təcavüzkarı özünə cəlb edən qadın və qızlardan da danışmaq lazımdır. Əgər bir feminist qız "qadın haqları" adı altında yürüşə çıxıb orada "qadın cinsi orqanına azadlıq" şüarı səsləndirirsə, bu cür insanlar artıq özlərini ən potensial təcavüz qurbanına çevirmiş olurlar. Eyni zamanda ağıllı, tərbiyəli, feminist olmayan həyalı bir Azərbaycan qızı böyük bir faizlə təcavüz ehtimalından uzaqda öz saf və gözəl həyatını yaşayır. Feminist qız, qadın isə həyatı boyu izdirab içində tələb etdiyi haqları özü poza-poza yaşayır.

Bu bir həqiqətdir ki, müsəlman cəmiyyətlərində təcavüz halları qərb dünyası ilə müqayisə olunmaz dərəcə azdır.

Bu mövzu çox geniş mövzudur. Çox maraqlıdır ki, "təcavüzü" şüar edən feministlər dünyada ən çox cinsi azadlıq tələb edən, daha nələr-nələr etmək istəyənlər koteqoriyasına daxil olurlar. Əgər biz təcavüzkarın cəzasından danışsaq, vicdanlı bir vətəndaş təcavüzkar insana İslam dininin verdiyi cəzanı təsdiqləyər. Bəzi humanist feministlər isə təcavüzkara İslamın verdiyi cəzanı qəbul etmirlər. Əgər bu qədər emosionallığın həqiqi və səmimi tərəfi varsa, görəsən, İslam dininin təcavüzkarlara verdiyi cəzanı niyə qəbul etmirlər? Görəsən, onları qadın təcavüzləri bu qədər narahat edirsə, onda təcavüzkarın cəzasına gəldikdə cinayətkarları qısa müddətdə həbs edən, təcavüzkarın nazı ilə oynayan qərb qanunlarını niyə dəstəkləyirlər? Bütün bunlar onu göstərir ki, bir çox feministlər onlardan müxtəlif məqsədlərlə istifadə edildiyini bilmirlər və əslində feministlərin əsas dərdi heç də qadın hüquqlarının bərpası deyildir. Həmçinin, qadın hüquqlarını qorumağın yollarından xəbərsiz olmaq özü qadın haqlarının pozulmasına gətirib çıxarır.

Ailədaxili şiddətə gəldikdə isə; ilk növbədə şiddətin səbəbləri müalicə olunmalıdır. Qadınlar maariflənməli və öz haqlarını bilməlidirlər. Bir sözlə ailədə öz yerlərini də bilməlidirlər. Kişi və qadın ailədə öz yerini bilərsə, münaqişələr də kifayət qədər azalar. Ailədaxili şiddətin bir çox səbəbləri var ki, onları bu kiçik yazıda müzakirə obyekti etmək niyyətimiz yoxdur. Lakin, bilmək lazımdır ki, insanlar mövcud olduqca insanlar arasında ixtilaflar daim olacaqdır. Lakin, sual qoyulsa ki, hansı ailələrdə

şiddət az olur? O zaman zənnimizcə şiddət probleminin həllinə yaxın bir müzakirə etmək və fayda hasil etmək olar. Lakin, feminizmi həll yolu kimi irəli sürmək çıxış yolu deyil. Çünki, feminizm özü ailə dəyərlərinə zidd olan bir ideologiyadır. Evlənməyə pis baxan kifayət qədər feministlər olduğu halda onlar heç bir şiddətin də qarşısını ala bilməzlər. Evlilikdən qaçmaq özü də təmiz bir həyat yaşamaq qarantisi deyil. Evlilikdən qaçmaq, evliliyi tanımamaq deməkdir. «İnsan bilmədiyinin düşmənidir» prinsipi ilə yanaşsaq, feministlərdən evliliyə nifrət edənlər evliliyi və ondakı faydaları bilməyənlərdir - desək, doğru olardı. Evlilikdən qaçan feministlər qadını evin çölündəki problemlərin ağuşuna atmalarını və evin xaricindəki şiddətlərdən də sığortalanmadığını yaxşı bilirlər. Əksinə, qadın üçün ən təhlükəli yer evinin içi deyil, evin çölüdür. Feminizm qadını "evdən çölə çıxarmaqla" qadın problemlərinin həllinə yaxınlaşacağını vəd edir. Lakin, feministlər unudurlar ki, evdar qadın da çölə çıxır, lakin, öz ailəsinə və sahib olduğu dəyərlərini qoruyaraq bunu edir.

Azərbaycanda ailədə təkcə şiddət problemləri deyil, boşanmalar pik həddindədir. Bunun ən böyük səbəbləri insanların mənəvi dəyərlərdən uzaq düşmənləridir. Feminizm isə heç bir mənəvi dəyər vəd etmir. Boşanmaların qarşısını almaq üçün isə sadiqlik, doğruluq, sevgi, vəfalılıq, qayğıkeşlik, şəfqət və rəhmət kimi gözəl əxlaqları tərəflər mənimsəməlidirlər. Feminist xarakterdə isə eqoistlik daha çox biruzə verir. Bu ideologiya təməlində dinə qarşı mübarizəni də

dəstəkləyən, əxlaqın da nisbi olduğunu müdafiə edən idiologiyalardandır. Qeyd olunan yüksək insani keyfiyyətləri olan qadın ailədə öz yerini biləcək, kişi də öz yerini biləcək, hərə öz elmi, fiziki və mənəvi potensialına görə ailəni qarşılıqlı sevgi və anlayış içində yaşadacaqlar. Belə bir ailədə şiddətə gərək qalmayacaqdır. Ona görə qəlblər yaxın olmalıdır. Sevgi haqqında gözəl deyilib ki: «Qəlblər yaxın olduqca səsin tonu aşağı düşər, qəlblər uzaqlaşdıqca da səsin tonu qalxar».
Ailədaxili şiddətlə bağlı tək problem bu deyil. Azərbaycanlı və başqa feministlər hətta, ərinə xəyanət edən, zina üzərində tutulan qadına əl qaldıran kişiləri də şiddətdə ittiham edirlər. Təsəvvür edin ki, bir kişi evinə girib və həyat yoldaşını başqa kişi ilə tutub. Sizcə bu kişi onlara gördükləri işə görə təşəkkürmü etməlidir? Yoxsa, bəraət qazandırmalıdır? Feminist səhifələri xəyanət üstündə döyülən və s. qadınları elə müdafiə edirlər ki, sanki xəyanət adi bir şey imiş kimi onun kişi olan həyat yoldaşının mənəviyyatına necə böyük bir zərbə vurulduğunu belə düşünmürlər. Axı feminist əxlaqı nisbidir və eqoistdir. Ona görə bundan o yana düşünə bilmirlər. Lakin, İslami mövqeyə əsasən bir kişi öz həyat yoldaşını zina edərkən tutarsa, onu öldürməli deyil, lazımi cəzanı şəriət məhkəməsinin təyin etməsini gözləməlidir.

Əgər söhbət qadın qətlindən gedərsə, o zaman təkcə ikinci dünya müharibəsində qətl edilmiş milyonlarla kişilərin və onların ailələrinin hüquqlarından niyə

danışılmamış və işlər görülməmişdir? Yoxsa, kişilərin haqqı-hüququ olmur? Bu müharibədə qətl edilən kişilərin sayı o qədər çox idi ki, heç əsrlər boyu hüquqları pozulub qətl edilmiş qadınların sayı ilə də müqayisə oluna bilməz. Bəs o zaman nədir bu keçmişin təəssübü?

## İslam qadına həqiqi azadlığı vermişdir!

İslam dini gəldiyi gündən qadınlara xüsusi önəm vermiş, ilk öncə on dörd əsr əvvəl qız uşaqlarına qarşı zamanın bütün cəmiyyətlırində və xalqlarında adi görünən, lakin, böyük bir cinayəti aradan qaldırmışdır. O da qız uşaqlarının diri-diri basdırılmasıdır. İslam dini qadını cəmiyyətə qazandırmışdır. Qadınlarla xoş davranmağı tələb edən ilahi kəlam Qurani-Kərimdə varid olmuşdur:

«Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Qadınlar açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın. Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun». (Nisə, 19).

Sonra cəmiyyətdə miras hüququndan məhrum edilmiş, aşağılanmış qadına miras hüququnu tanımışdır:

«Valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan qadınlara da pay düşür. Bu mal istər az olsun, istərsə də çox, onlar üçün müəyyən edilmiş bir paydır». (Nisə, 7).

İslamdan əvvəl isə həmin ərəb qəbilələrində qadına mirasdan pay düşmürdü. Əgər İslam ərəblərin millətçiliyinə və feodalizmə xidmət edirdisə, onda nə üçün on dörd əsr öncə qadın haqları barədə yeniliklər və bu cür reformlar edilirdi? Əgər İslam qadını əzən bir mühitdə qadınları ictimai həyata kişiylə bərabərhüquqlu bir insan olaraq qaytara bildisə, nə üçün bunun özü ilahi bir əmrlə olmasın ki? Göründüyü kimi İslam qadına münasibətdə, qadın haqlarının tanınmasında nəinki ərəblərdən, hətta, on dörd əsr öncəki dünyada böyük bir inqilab etmişdi.

İslam dini kişiyə öz həyat yoldaşının pulunu xərcləməyi icazəli hesab etmir, yalnız onun könül xoşluğu ilə ailəsinə xərcləmək istədiyi pul bundan istisnadır.

İslam dini iki valideyndən (ata və anadan) daha çox hörmətin anaya edilməsinin gərəkdiyini vurğulamışdır.

Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki: "Bir nəfər Allah elçisinin ﷺ yanına gəlib soruşdu:

- "Ey Allahın elçisi! Ən çox kimə qayğı göstərilməlidir?"
- Dedi: "Anana!"

- (Yenə) soruşdum: "Ən çox kimə qayğı göstərilməlidir?"
- Dedi: "Anana!" (Yenə) soruşdum: "Ən çox kimə qayğı göstərilməlidir?"
- Dedi: "Anana!" (Yenə) soruşdum: "Ən çox kimə qayğı göstərilməlidir?"
- Dedi: "Atana!". (Buxari və Müslim).

Məşhur islam alimi Nəvəvi (Allah ona rəhmət etsin) demişdir: "Burada anaya üstünlük verilməsinin səbəbi budur ki, ana övladının qayğısına qalmaq üçün çox böyük zəhmət çəkir, ona qarşı şəfqət göstərir və ona xidmət edir. Övladını bətnində daşıyarkən məşəqqət çəkir, sonra onu dünyaya gətirir, sonra ona süd verir, sonra onu tərbiyə edir, xidmət edir, xəstələndikdə qulluq edir və s".

Peyğəmbər ﷺ bir hədisində qadınlar haqqında buyurmuşdur: «Qadınlar kişilərin yarıdır (doğmaları, əzizləridir)». (Əbu Davud, 236; Tirmizi, 113).

İslam dinində qadınların ev işi görmələri də könüllülük prinsipi əsasındadır. Qadın öz ərindən ev işlərini görmək üçün imkan daxilində xidmətçi də tələb edə bilər. Bunu bilmək mühümdür. Lakin, madam ki, mentalitetdə buna zidd bir şey yoxdur, bu da yaxşı bir haldır.

Muhəmməd Peyğəmbər ﷺ müsəlmanlara örnək olaraq ev işlərində öz ailəsinə yardımçı olmuşdur. Bunu eşitmək feministlərin də ürəyincə olar. Üstəlik onlar üçün

yeni bir məlumat ola bilər. Onlar bu gün "nümunə kimi" bizə göstərdikləri "feminist kişi" obrazını İslam dini ailəsinə kömək edən həqiqi kişi əxlaqı ilə on dörd əsr öncə bizə bu mesajı vermişdir. Halbuki, bunun üçün feminist kişi olmağa ehtiyac yoxdur.

Peyğəmbər ﷺ belə buyurmuşdur:

«Sizin ən xeyirliniz ailəsinə qarşı ən xeyirli olandır. Mən də sizin içinizdə ailəsinə qarşı ən xeyirli olanınızam». (Səhih hədislər silsiləsi, 285).

Həmçinin, Peyğəmbər ﷺ demişdir:

«Möminlərin imanda ən kamili əxlaqı ən gözəl olanıdır. Sizin də ən xeyirliniz zövcəsinə ən gözəl davrananınızdır». (Səhih Tərğib və Tərhib, 1923).

Peyğəmbər ﷺ başqa bir rəvayətdə demişdir:

«Qadınlarınız barəsində Allahdan qorxun. Siz onları Allahın əmanəti olaraq aldınız, onlarla Allahın əhdi ilə evləndiniz». (Muslim, 1218).

Peyğəmbər ﷺ həmçinin belə buyurmuşdur:

«Mömin kişi mömin qadına (zövcəsinə) nifrət etməsin. Əgər onun bir xasiyyəti xoşuna gəlməzsə, qoy başqa xasiyyətindən razı qalsın» (Muslim, 1469).

Bu hədisin şərhində İmam Nəvəvi (Allah ona rəhmət etsin) belə demişdir: «Yəni: zövcəsinə xoşuna gəlməyən xasiyyətinə görə nifrət etməsin. Onun razı qaldığı xasiyyətini xatırlasın. Məsələn; əgər sərt xasiyyətli olarsa, onun dində möhkəmliyini, gözəlliyini, iffətli olmasını, yaxşı yoldaş olmasını yadına salsın». (Muslimin şərhi, 10/58).

İbn Abbas (Allah ondan razı olsun) demişdir: «Zövcəmin mənim üçün bəzənməyini xoşladığım kimi, mən də onun üçün bəzənməyi xoşlayıram». (İbn Muflihin «Furuu», əsəri, 5/239).

Sonda isə dr. Bəşir İsam «Feminizm cinayəti» kitabında feministlərin din düşmənliyi barədə, dinin feministlərə qarşı olduğunu rədd edərək dediyi sözləri gəlin birlikdə oxuyaq: «Bu feministlər elə bilirlər ki, evlilikdən qaçmaqla kişi asılılığından qurtulacaqlar. Onlar dinin kişilərin öz ailələrinin qeydinə qalmaq, ailə məsuliyyəti hiss etməyi öyrətməsinin əhəmiyyətini bilmirlər. Onlar bilmirlər ki, Qurani-Kərim kişilərə ailələrini qorumağı və uşaqlarının qeydinə qalmağı, məsuliyyətini daşımağı əmr edir… O zaman ki, feministlər evliliyin dəyərini inkar etdilər, onlar öz əlləri ilə öz qəbirlərini qazmış oldular. Bu isə çoxlu sayda dul qalmış qadınların atalarının köməyi olmadan öz uşaqlarının məsuliyyəti ilə baş-başa qalmaları yolu ilə baş verdi (20).

## İstifadə edilmiş ədəbiyyat:

**1 -** Azərbaycanın "qadın batalyonu" - feministlər adlı məqalə. Xalidə Gəray, musavat.com. 09.02.2018.

**2 -** Feminizmin qısa hekayəsi, məqalə. Qadınkimi.com. 08.07.2018.

**3 -** Feministlər kimdir: hüquq bərabərliyinə çalışanlar, yoxsa kişi düşmənləri? - adlı məqalə, Lalə Mehralı. news.milli.az saytı. 13.01.2012.

**4 -** Məlumat feministlərin rəsmi səhifələrindən birindən götürülmüşdür. Reklam olmasın deyə mənbəni qeyd etmirik.

**5 -** Məlumat feministlərin rəsmi səhifələrindən birindən götürülmüşdür. Reklam olmasın deyə mənbəni qeyd etmirik.

**6 -** Məlumat feministlərin Facebook səhifəsindən götürülmüşdür. Reklam olmasın deyə mənbəni qeyd etmirik.

**7 -** Azərbaycanda orta məktəb müəllimlərinin 77,1 faizini qadınlar təşkil edir. Məqalə. BAKU. WS saytı.

**8 -** Azərbaycanda qadınların çalışdığı əsas sahələr, məqalə. Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirliyi. Gomap.az. 6.3.2015.

**9 -** Cinəyətun-Nəsəviyyə aləl-mər'əti vəl-muctəməi, Dr. Bəşir İsam əl-Mərakeşi, səh 55 (ərəbcə kitab). Nəşr 2020.

**10** - Yenə eyni mənbədə.

**11 -** Yenə eyni mənbədə.

**12 -** Azad qadın, yoxsa, kişi düşməni? Məqalə, baku.ws saytı. 12.03.2020.

**13 -** Feministlər kimdir: hüquq bərabərliyinə çalışanlar, yoxsa kişi düşmənləri? - adlı məqalə, Lalə Mehralı, news.milli.az saytı. 13.01.2012.

**14 -** Yenə eyni mənbədə.

**15 -** Cinəyətun-Nəsəviyyə aləl-mər'əti vəl-muctəməi, Dr. Bəşir İsam əl-Mərakeşi, səh 55 (ərəbcə kitab). Nəşr 2020-ci il.

**16 -** əl-Va'yu jurnalı, (ərəbcə jurnal), 2006-cı il buraxılışı, haqiqatul-harakət ən-nəsəviyyə əl-Muasirah - adlı məqalə, no: 238. Ummu Mərvə.

**17 -** Yenə eyni mənbədə.

**18 -** İşkəliyyətul-Mustalah ən-Nəsəvi - Dirasə diləliyyyə, Dr. Xalid əs-Seyf. (Ərəbcə kitab). səh:
52. / Nəşr 2016-cı il.

**19 -** Qadınlarla kişilər nə dərəcədə fərqlidir? Məqaləsi, BBC Azərbaycanca internet saytı. 10.04.2018.

**20 -** Cinəyətun-Nəsəviyyə aləl-mər'əti vəl-muctəməi, Dr. Bəşir İsam əl-Mərakeşi, səh, 135. (ərəbcə kitab). Nəşr 2020-ci il.

## Mündəricat

Müqəddimə……………………………………………….2
Feminizm nədir?....................................................... 4
Feminizmin qısa tarixi………………………………....5
Feminizmin növləri………………………………..….6
Görəsən Azərbaycan qadınları həqiqətən də öz hüquqlarından məhrumdurlarmı?...............................7
Feminizm bizə lazımdırmı?.........................................10
Feminizmin cəmiyyətimiz üçün təhlükəsi nədir?...........11
Birinci təhlükə……………………………………….11
İkinci təhlükə………………………………………...12
Üçüncü təklükə……………………………………..13
Dördüncü təhlükə…………………………………..13
Beşinci təhlükə……………………………………...14
Altıncı təhlükə……………………………………….16
Yeddinci təhlükə…………………………………….16
Səkkizinci təhlükə…………………………………..18
Doqquzuncu təhlükə………………………………18
Onuncu təhlükə……………………………….....…19
On birinci təhlükə…………………………….…..21
Qadın hüquqları və "cins bərabərliyi" barədə…………23
Qadın və kişi arasında fərqlər danılmazdır…….…….26
Qadın hüquqlarının pozulması halları…………..……28
İslam qadına həqiqi azadlığı vermişdir!........................33
İsifadə edilmiş ədəbiyyat…………………………..38
Mündəricat……………………………………..…41